

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 avqust 2026-cı il №55 (3057) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək”

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Naxçıvan Muxtar Respublikasına son səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan Əməliyyat (Komando) hərbi hissələrinə Döyüş bayraqlarının təqdim edilməsi mərasimində iştirak etmələri ordu quruculuğu istiqamətində mühüm əhəmiyyət daşıyır.***



Dövlət başçısının həmin gün Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi “Bildiyiniz kimi, Naxçıvanda mənim Sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək” fikri isə muxtar respublikanın müdafiə qabiliyyətinin davamlı şəkildə artırılmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bir daha nümayiş etdirir.

Məlumdur ki, tarixi torpağımız olan Naxçıvanın təhlükəsizliyi Azərbaycan dövlətinin suverenliyinin və toxunulmazlığının mühüm tərkib hissəsidir. Muxtar respublikanın coğrafi mövqeyi, Azərbaycanın əsas ərazisi ilə birbaşa quru bağlantısının olmaması və mürəkkəb regional təhlükəsizlik mühiti burada müdafiənin təşkilinə xüsusi yanaşmanı zəruri edir. Məhz bu reallıqlar nəzərə alınaraq Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) yaradılması və onun imkanlarının davamlı olaraq dövrün tələblərinə uyğun, müasir çağırışlar, ehtimal edilən təhdidlər nəzərə alınmaqla inkişaf etdirilməsi strateji əhəmiyyətli qərar kimi özünü doğruldub.

(Ardı 2-ci səhifədə)

## ANAMA: Ötən həftə 1581 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən avqustun 3-9-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 87, tank əleyhinə 20 mina və 784 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1581 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib.




## Türkiyənin HAVELSAN şirkəti Ankara və Bakının müdafiə sahəsində əməkdaşlığına töhfə verir

Türkiyənin aparıcı müdafiə şirkətlərindən biri olan HAVELSAN Ankara ilə Bakı arasında müdafiə sahəsində əməkdaşlığın dərinləşməsinə töhfə verməyə davam edir.

AZƏRTAC Türkiyə mediasına istinadla xəbər verir ki, HAVELSAN mütəxəssisləri tərəfindən hazırlanmış Türkiyə Hərbi Hava Qüvvələrinin vacib proqram təminatının bir hissəsi Azərbaycan HHQ komandanlığına verilib.

HvBS adlanan proqram, hava əməliyyatlarının interaktiv planlaşdırılmasını və icrasını təmin etməklə yanaşı, təyin olunmuş tapşırıqları izləmək və qiymətləndirməklə əməliyyat imkanlarını da artırır.

HAVELSAN tərəfindən hazırlanmış və Azərbaycan Hərbi Hava Qüvvələri komandanlığına ötürülən sistem əməliyyat mərkəzi personalına vahid “əməliyyat xəritəsi” üzrə fəaliyyət göstərməyə, əməliyyatları real vaxt rejimində idarə etməyə və vacib məlumatları mərkəzi yerdən izləməyə imkan verir, habelə qərar qəbuletməni sürətləndirir. Bu, planlaşdırma, koordinasiya və missiyanın icrasının sürətini, dəqiqliyini və səmərəsini əhəmiyyətli dərəcədə artırır.

HvBS proqramı Hərbi Hava Qüvvələrinin əməliyyat hazırlığı prosesinin müddətini əhəmiyyətli dərəcədə azaldır və hava əməliyyatlarının çevikliyini təmin edir.

HAVELSAN sistemi modulyar arxitekturası sayəsində mövcud komandanlıq və idarəetmə sistemlərinə də inteqrasiya edilə bilər.

Türkiyə mediası HvBS proqramının Azərbaycan Hərbi Hava Qüvvələrinə çatdırılmasını iki qardaş ölkə arasında hərbi-sənaye kompleksində əməkdaşlıq səviyyəsini nümayiş etdirən vacib addım adlandırıb.

Türkiyəli mütəxəssislər Türkiyə Hərbi Hava Qüvvələrinin əməliyyat hazırlıq müddətini bir saata endirən HvBS sisteminin imkanlarını dəfələrlə yüksək qiymətləndiriblər.

## Hakan Fidan: Türkiyə Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə edilməsi səylərini dəstəkləyir

*Türkiyə Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə edilməsi səylərini dəstəkləyir.*

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan “Anadolu” Agentliyinin redaktorları ilə dəyirmi masa müzakirəsi zamanı bildirib.

Türkiyə diplomatiyasının rəhbəri Bakı ilə İrəvan arasında sülhə doğru davam edən dialoqa diqqət çəkib. O, Cənubi Qafqazın Türkiyənin təhlükəsizlik arxitekturasına birbaşa təsir edən bölgələrdən biri olduğunu qeyd edib.

Ötən gün Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında müdafiə sahəsində imzalanan əməkdaşlıq müqaviləsinə toxunan nazir sözügedən təşəbbüsün İran daxil olmaqla digər dövlətlərə qarşı yönəlmədiyini vurğulayıb.

“Müqavilənin mətnində ümumi bir təhlükə mənbəyi göstərilməyib. Yəni heç bir dövlət bizə təhdid etmədikcə hədəfə alınmayacaq. Məqsəd regional proseslərdə daha çox məsuliyyəti öz üzərimizə götürməkdir. Regiondankənar qüvvələr problemləri həll etmir, daha da ağırlaşdırır”, - deyə nazir bildirib.

Onun sözlərinə görə, Ankara, Ər-Riyad və İslamabad regionda qeyri-sabitliyə son qoymağa, daha geniş inteqrasiyaya nail olmağa və region sakinlərinin rifahını yaxşılaşdırmağa çalışırlar.

“Saziş iki ildir hazırlanırdı. İmza atan ölkələr həmrəylik nümayiş etdirərək bir-birinin təhlükəsizliyini təhdid etməməyə söz veriblər”, - deyən nazir bildirib ki, üçtərəfli Məkkə Müdafiə Müqaviləsi Şimali Atlantika Müqaviləsinin (NATO Nizamnaməsi) “kollektiv müdafiə haqqında” 5-ci maddəsi ilə “texniki cəhətdən eynidir”.

Qafqaz regionundakı ölkələrlə oxşar müdafiə müqaviləsinin bağlanma ehtimalı barədə suala cavab olaraq H.Fidan qeyd edib ki, belə bir təşəbbüs lazım gələrsə həyata keçirilə bilər.

Nazir Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında imzalanan müqaviləyə qoşulmaq istəyən ölkələrin olduğunu da açıqlayıb, lakin onların adlarını çəkməyib.

“İnanıram ki, Misir də sonrakı mərhələdə Alyansımıza qoşulacaq”, - deyə Türkiyənin xarici işlər naziri bildirib.

## Pilotdan qərargaha bir klik: Türkiyə istehsalı HvBS Azərbaycanın döyüş idarəetməsini necə dəyişdirir



Hərb tarixində texnologiyaların dəyəri çox vaxt gözlə görünən meyarlarla ölçülüb: təyyarənin sürəti, raketin mənzili, radarın gücü. Lakin XXI əsrin hava qüvvələrində həlledici üstünlük artıq görünməyən bir təbəqədə - bütün bu platformaları vahid orqanizmə çevirən proqram təminatı arxitekturasında formalaşır. Dünyanın aparıcı orduları son 20 ildə aşkar ediblər ki, ən müasir qırıcı belə, onu idarə edən rəqəmsal ekosistem olmadan sadəcə bahalı bir metal parçasıdır. Məhz bu kontekstdə HAVELSAN-ın Hərbi Hava Qüvvələri İnformasiya Sistemi (HvBS) çərçivəsində hazırlanmış kritik imkanların Azərbaycan Hərbi Hava Qüvvələri Komandanlığına təhvil verilməsi texniki müstəvidə ayrıca və dərin təhlil tələb edir.

(Ardı 5-ci səhifədə)

# “Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək”

(Əvvəli 1-ci səhifədə)

Əlahiddə Ümumqoşun Ordunun formalaşdırılması Naxçıvanın müdafiəsinin daha çevik, dayanıqlı və müasir tələblərə uyğun təşkilinə imkan verir və sadalanan təxirəsalınmaz fəaliyyətlər bu gün də uğurla davam etdirilir. ƏÜO Azərbaycan Ordusunun ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, yerləşdiyi ərazinin spesifik xüsusiyyətlərinə uyğun olaraq xüsusi döyüşaparma və özünümüdafiə imkanlarına malikdir. Onun qarşısında dayanan əsas vəzifələrdən biri nəinki muxtar respublikanın, ümumilikdə ölkəmizin ərazi bütövlüyünün, müdafiəsinin və təhlükəsizliyinin etibarlı təmin olunmasıdır.



Son illərdə Naxçıvanda hərbi infrastrukturun təkmilləşdirilməsi, bölmələrin müasir silah və texnika ilə təchiz edilməsi, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Döyüş hazırlığının tərkib hissəsi kimi ƏÜO-nun hərbi qulluqçuları müxtəliftəyinatlı yerli və beynəlxalq təlimlərdə iştirak etməklə öz bilik və bacarıqlarını daha da artırır. Sadalanan proseslər Azərbaycan Ordusunda aparılan genişmiqyaslı ordu quruculuğu işlərinin Naxçıvan istiqamətində də sistemli şəkildə davam etdirildiyini göstərir.



Prezident İlham Əliyevin səfər çərçivəsində yeni yaradılan Əməliyyat (Komando) hərbi hissələrinə Döyüş bayraqlarını təqdim etməsi böyük məna kəsb edən hadisələrdən biri olaraq ordu quruculuğu tariximizdə xüsusi əhəmiyyət daşıyır. Belə ki, komando bölmələrinin yaradılması müasir döyüşün tələblərinə cavab verən yüksək hazırlıqlı, çevik və müxtəlif şəraitlərdə fəaliyyət göstərmək imkanına malik hərbi qulluqçuların hazırlanmasına verilən önəmin bariz göstəricisidir. Bu bölmələrdə xidmət edən hərbi qulluqçuların fiziki hazırlığı, taktiki bacarığı, atəş hazırlığı, dağlıq və mürəkkəb relyef həmçinin, müxtəlif iqlim şəraitində fəaliyyət qabiliyyəti xüsusi rol oynayır.

Naxçıvanın relyefi də hərbi hazırlıq baxımından özünəməxsusluğu ilə seçilir. Dağlıq və ya düzən ərazilərdə fəaliyyət göstərmək üçün şəxsi heyətin xüsusi hazırlığa malik olması, bölmələrin yüksək manevr qabiliyyətinə və çevik idarəetmə xüsusiyyətlərinə malik olması mühüm amillərdəndir. Bu baxımdan komando hərbi hissələrinin yaradılması Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində atılan vacib addımlardan biridir.

Müasir dövrdə ordunun gücü yalnız silah və texnikanın say göstəriciləri ilə müəyyən edilmir. Döyüş qabiliyyətinin əsas komponentlərini peşəkar şəxsi heyət, yüksək döyüş hazırlığı, müasir idarəetmə və rabitə sistemləri, kəşfiyyat imkanları, texnoloji üstünlük, təminatın dayanıqlığı və müxtəlif döyüş şəraitlərinə uyğunlaşma qabiliyyəti təşkil edir. Azərbaycanın hərbi quruculuq siyasətində bu amillərin kompleks şəkildə inkişaf etdirilməsi Naxçıvandakı hərbi birliklərin əməliyyat imkanlarının genişlənməsinə şərait yaradır.

Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılması Naxçıvanın müdafiə sisteminin mühüm elementlərindən biridir. Şəxsi heyətin mütəmadi təlimlərə cəlb olunması, müxtəlif taktiki imkanların modernləşdirilməsi, atəş hazırlığının müasir döyüş üsul və vasitələrinə uyğun təkmilləşdirilməsi və bölmələrin qarşılıqlı koordinasiyalı fəaliyyətinin gücləndirilməsi, dünyanın aparıcı ordularının təcrübəsinin öyrənilməsi real döyüş şəraitində effektiv fəaliyyət üçün mühüm zəmin yaradır.

Burada əsas məsələ yalnız mövcud hərbi potensialın qorunması deyil, onun daim yenilənməsi və inkişaf etdirilməsidir. Ali Baş Komandanın “Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək” ifadəsi də məhz davamlı inkişaf prinsipini özündə əks etdirir.



Naxçıvan istiqamətində güclü və müasir hərbi potensialın mövcudluğu həm də strateji çəkindirmə amilidir. Yüksək döyüş hazırlığına malik, müasir döyüş vasitələri ilə təchiz olunmuş, peşəkar hərbi qulluqçulardan ibarət bölmələrin yaradılması və digər preventiv tədbir, yəni atılan qabaqlayıcı addımla mümkün təhdidlərin qarşısının alınmasında xüsusi çəkiyə malikdir. Güclü hərbi potensial, ilk növbədə yalnız müdafiə xarakteri daşıyır dövlətin suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, əhalinin təhlükəsizliyinin təmin edilməsinə xidmət edir.

Naxçıvanda hərbi potensialın gücləndirilməsi Azərbaycan Ordusunun vahid inkişaf strategiyasından kənarda deyil. Əksinə, bu proses Silahlı Qüvvələrin bütün komponentlərinin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Əlahiddə Ümumqoşun Ordunun müasir tələblərə uyğun şəkildə gücləndirilməsi Azərbaycan Ordusunun regional təhlükəsizlik mühitində çevik və effektiv fəaliyyət imkanlarını daha da genişləndirir.



Döyüş bayrağının yeni yaradılan Əməliyyat (Komando) hərbi hissələrinə təqdim olunması isə hərbi baxımdan mühüm məna daşıyır. Döyüş bayrağı hərbi hissənin şərəfini, döyüş şöhrətini və dövlət qarşısında daşıdığı məsuliyyəti ifadə edən müqəddəs rəmzdir. Bu bayrağın hərbi hissəyə təqdim edilməsi şəxsi heyətin Vətən qarşısında andına və hərbi borcuna sədaqətinin simvolik ifadəsidir.

Bu gün Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifələrdən biri də əldə edilmiş yüksək döyüş qabiliyyətini daha da təkmilləşdirməkdir, müasir müharibələrin xarakterindən irəli gələn yeni tələblərə uyğunlaşmaq və ordunun texnoloji imkanlarını genişləndirməkdir. Naxçıvanda ordu quruculuğu istiqamətində aparılan məqsədyönlü fəaliyyətlər də bu ümumi strategiyanın tərkib hissəsi kimi böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Naxçıvanda səsləndirdiyi fikirlər bir daha göstərir ki, muxtar respublikanın müdafiəsi və təhlükəsizliyi daim diqqət mərkəzindədir. Əlahiddə Ümumqoşun Ordunun gücləndirilməsi, yeni Əməliyyat (Komando) hərbi hissələrinin yaradılması, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi və hərbi infrastrukturun modern tələblər çərçivəsində qurulması Naxçıvanın müdafiə potensialının gələcəkdə də artırılacağını özündə əks etdirir.

Nəticə etibarilə, Naxçıvanda hərbi potensialın gündən-günə yüksəldilməsi yalnız cari təhlükəsizlik məsələlərinə cavab deyil, həm də uzunmüddətli müdafiə strategiyasının mühüm istiqamətidir. Coğrafi baxımdan xüsusi mövqeyə malik Naxçıvanın etibarlı müdafiəsi üçün burada yüksək hazırlıqlı, çevik və müasir hərbi qüvvələrin mövcudluğu zəruridir. Əlahiddə Ümumqoşun Ordunun inkişafı bu zərurətin praktik ifadəsidir.

Ali Baş Komandanın müəyyən etdiyi əsas xətt aydındır: Naxçıvanın müdafiə imkanları mövcud səviyyə ilə məhdudlaşmır. Hərbi potensialın davamlı şəkildə artırılması və döyüş qabiliyyətinin yüksəldilməsi qarşıdakı illərdə də davam etdiriləcək. Bu isə Naxçıvanın təhlükəsizliyinin təmin olunması ilə yanaşı, Azərbaycanın müdafiə sisteminin bütövlüyünün daha da möhkəmləndirilməsinə və dayanıqlığının artırılmasına xidmət edir.







**“Azərbaycan Ordusu”**

# Azərbaycan, Macarıstan və Qazaxıstan Müdafiə nazirlikləri arasında hərbi informasiya sahəsində təcrübə mübadiləsi üzrə işçi görüşü keçirilib







*Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində Azərbaycan, Macarıstan və Qazaxıstan Müdafiə nazirlikləri arasında hərbi informasiya sahəsində təcrübə mübadiləsi məqsədilə işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlara Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası, Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. Həmçinin Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlar zamanı informasiya təminatı, dezinformasiyalara qarşı aparılan mübarizə tədbirlərindən danışılıb.




Sonra nümayəndə heyətlərinə Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən informasiya, kommunikasiya, hərbi-mülki əməkdaşlıq (CIMIC), ictimaiyyətlə əlaqələr, nazirliyin rəsmi sosial media platformaları, eləcə də vətəndaş müraciətləri sahəsində görülən işlərlə bağlı brifinqlər təqdim edilib.

Görüşdə, həmçinin hər üç ölkənin ordusunda strateji kommunikasiya işinin, informasiya fəaliyyətinin və hərbi-mülki əməkdaşlığın təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında hərbi informasiya sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra nümayəndə heyətləri Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının “Azərbaycan Ordusu” qəzeti redaksiyası və Multimedia Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar.



## Pakistan səfiri: Regionda sülhün təmin olunması üçün səylərimizi davam etdiririk

*Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında imzalanmış müdafiə müqaviləsi Pakistanın Cənubi Asiyada təhlükəsizlik və sabitliyin təmin olunmasında mühüm rol oynadığını bir daha nümayiş etdirir.*

AZƏRTAC xəbər verir ki, bunu Pakistanın Azərbaycandakı səfiri Qasim Mohiuddin Pakistanın Müstəqillik Günü ilə bağlı keçirilən tədbirdə jurnalistlərə açıqlamasında deyib.

Diplomat bildirib ki, hazırda regionda davam edən gərginliklər fonunda Pakistan mühüm rolunu yenidən nümayiş etdirib.

“Bizim köməyimiz və məsləhətlərimiz sayəsində müharibənin qarşısı müəyyən qədər alındı. Biz hələ də sülh yolu ilə həll variantının tapılmasına çalışırıq”, - deyə Qasim Mohiuddin qeyd edib.

O vurğulayıb ki, Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında müdafiə müqaviləsi də regionda təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səfirin sözlərinə görə, bu əməkdaşlıq Pakistanın Cənubi Asiyada təhlükəsizlik və sabitlik zəmanətçisi kimi rolunu daha da gücləndirir.

*Gənc zabitlərimiz*

## Vətənə sevgisidir onu hərbçi edən



***Hərbi peşəni bütün peşələrdən önəmli hesab edirəm. Çünki bu peşənin çətinlikləri də, özəllikləri də çoxdur. Çətinlik deyəndə hərbçi vaxtın çoxunu ərazidə, təlim meydanında, dağda-dərədə keçirir. Silahdan güllə atmağı, düşməni məhv etməyi, Vətənə olan təhlükənin qarşısını almaq kimi mühüm vəzifəni yerinə yetirir. Bu yol onun ömrünü yarıda qoya bilər. “Sonunu düşünən qəhrəman olmaz, deyiblər”. - Əyninə hərbi mundir geyinən Vətən oğulları da yurduna, elinə-obasına qəlbən bağlı olublar. O oğullardır ki, bu gün Vətənimizin torpaqları onların sayəsində düşmən işğalından tam azad edilib və ərazi bütövlüyü bərpa olunub. Xalqımızın doğma elinə bağlılığı, sevgisi hər zaman tükənməz olub. Babalardan, ulu əjdadlardan bizə ərməğan olan dövlətçilik ənənəsi bu gün də döyüşçülərimizin, vətənpərvər oğullarımızın sayəsində yaşadılır.***

Leytenant Nüsrəddin Poladov Azərbaycan Ordusunun gənc zabitlərindəndir. İkinci Qarabağ müharibəsi başlayanda indiki Heydər Əliyev adına Hərbi İnstituta yenicə qəbul olunmuşdu. Birinci kursun kursantı idi. Evdə valideynlərdən, məktəbdə müəllim və şagirdlərdən, həyətdə dostlardan, idman zalında idmançı yoldaşlarından öyrənmişdi ki, torpaqlarımız ermənilər tərəfindən işğal olunub. Vətənimiz müharibə şəraitindədir. Torpaqlarımızın düşmən işğalı altında qaldığı üçün Nüsrəddin özünü də günahkar bilirdi. Daxildə bir narahatlıq keçirirdi. Bu narahatlığın aradan qaldırılması üçün yeganə yolu gələcəkdə hərbçi, zabit olmaqda görürdü. İstəyirdi ki, gələcəkdə peşəkar zabit, təcrübəli komandir olsun. Tabeliyində olanlara mükəmməl hərbi biliklər, praktiki vərdişlər aşılasın. Bir sözlə, doğma Vətəninin müdafiəsinə və işğalda olan torpaqlarımızın azad edilməsinə töhfə versin. Nüsrəddinin zabit peşəsini seçməkdə məqsədi məhz bu idi. O, hərbi instituta qəbul olandan sonra, müharibə başladı. Əyninə yenicə hərbi formanı geyinmişdi. Sırada duruş qaydalarını da yeni öyrənirdi. Əlinə avtomat alıb ilk atışı hələ keçirməmişdi. Birinci atış çalışmasını yerinə yetirməyə hazırlaşırdı ki, müharibə xəbərini aldı. Nüsrəddin həmin günü belə xatırlayır:

- Səhər idi. Yataqxanada səliqə-sahman işləri görürdük. Növbətçi “Düzül!” komandasını verdi. Komandanı həyəcanlı səslə bir neçə dəfə təkrar etdi. Növbətçinin səsinin ahəngində həyəcan var idi. Mən kursant yoldaşlarıma dedim ki, bu həyəcan əvvəlki həyəcana bənzəmir. Onlar da mənim fikrimlə razılaşdılar. Vaxt itirmədən düzülüş yerində cəmləşdik. Kursant bölüyünün komandiri sıranın qarşısına çıxıb dedi ki, Ermənistanla sərhəd boyu vəziyyət gərgindir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı orduya əks-hücum əmrini verib və ölkədə qismən səfərbərlik elan edib.

Dövlət başçımızın bu əmrinə görə mən də sevindim. 30 ilə yaxın erməni işğalı altında qalan doğma Qarabağımızın və digər ərazilərimizin azad edilməsi istiqamətində hərbi əməliyyatlar başlamışdı. Biz kursantlar da könüllü döyüşə getmək istəyimizi bildirdik. Bizə ehtiyac olmadığını dedilər. Bu haqq savaşı idi. Ölkəmiz digər bir ölkə tərəfindən (təbii ki, xarici dövlətlərin dəstəyi ilə) təcavüzə məruz qalmış və nəticədə böyük bir ərazimiz işğal olunmuş və bir milyondan artıq soydaşımız doğma el-obasından didərgin düşmüşdü.

Nüsrəddin orta məktəbdə də yaxşı oxuyub. Daha çox tarix fənnini öyrənməyə can atıb. Müstəqilliyimizin ilk illərində ölkəmizdə baş verən ictimai-siyasi hadisələri dərindən təhlil etməyə çalışıb. Həmin dövrün hadisələri ordu quruculuğuna da mənfi təsir göstərib. Ermənistanla cəbhədə yaranmış gərginlik və müvəqqəti məğlubiyyət də siyasi hakimiyyətdə yaranmış xaosun acı nəticəsi idi. Bütün bunların fonunda xalqa, dövlətə sədaqətin nümunəsi olaraq vətəndaş mövqeyi dayanır. Yenicə orta məktəb partasından ayrılan Nüsrəddin Poladovu da zabit peşəsinə aparan yol həmin vətəndaş mövqeyi olub.

Leytenant Nüsrəddin Zamin oğlu Poladov iki ildir Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında zabit olaraq xidmət edir. Yiyələndiyi ixtisas üzrə yetərincə biliyə və bacarığa malikdir. Onun xidmətindən yuxarı rəislər də razıdırlar.

İdmançı görkəmli gənc zabit həm də uşaq yaşlarından idmana böyük maraq göstərib. Onun idmana olan sonsuz marağı hərbi xidmətdə də özünü göstərir. Nüsrəddinin nümunəvi zabit kimi formalaşması onun hərbi xidmətə, idmana, təhsilə olan müstəsna marağından irəli gəlir. Zabit deyir ki, torpaqlarımız düşmən işğalından tam azad olunub. Hazırda müharibə yoxdur. Ancaq onların vəzifəsi ölkəmizin hava məkanını hər zaman ayıq-sayıq qorumaqdır. Bunun üçün bütün imkanlardan yararlanmağı bacarmaq lazımdır.

Nüsrəddin Poladovun xidmət etdiyi hərbi hissə hava məkanının qorunması üçün lazım olan müasir, yeni silahlarla və müşahidə cihazları ilə tam təmin olunub. Bu cür təminat onların xidmətini həm asanlaşdırır, həm də keyfiyyətli döyüş hazırlığını təmin edir.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**

Tibb xidməti

# “Məsuliyyətli olmaq hər bir Azərbaycan vətəndaşının borcudur”

***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir”. Bu fikirləri səsləndirən Ümummilli Lider Heydər Əliyev səhiyyənin dövlətin inkişafında və insanların rifahının təmin edilməsində müstəsna rolunu hər zaman xüsusi vurğulayırdı.***



Sağlamlıq həyatın əsas dayağı, insanın ən qiymətli nemətidir. Bu dəyərli sərvətin qorunması isə peşəkar və fədakar tibb işçilərinin üzərinə düşən ən məsuliyyətli vəzifələrdəndir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində də əsaslı islahatlara başlanıldı. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirildi, müasir idarəetmə prinsipləri tətbiq olundu, beynəlxalq əməkdaşlıq əlaqələri genişləndirildi. Bunun nəticəsində Azərbaycan səhiyyəsi yeni inkişaf mərhələsinə qədəm qoyaraq əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə etdi.

Bu gün də həmin siyasi kurs uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkənin səhiyyə sisteminin müasirləşdirilməsi istiqamətində ardıcıl addımlar atılır. Paytaxtla yanaşı, regionlarda da müasir tibb müəssisələri tikilərək istifadəyə verilir, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulur və ən son tibbi avadanlıqlarla təchiz edilir. Bu tədbirlər əhalinin keyfiyyətli tibbi xidmətlərdən istifadəsinə geniş imkanlar yaradır.

Dövlətin səhiyyə sahəsində həyata keçirdiyi məqsədyönlü siyasət Azərbaycan Ordusunda hərbi tibb xidmətinin inkişafında da öz əksini tapır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də hərbi qulluqçuların sağlamlığının etibarlı şəkildə qorunması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.

Müasir dövrdə isə orduların potensial gücü yalnız döyüş meydanındakı uğurlarla ölçülmür. Hərbi qulluqçunun etibarlı silahı, keyfiyyətli təchizatı, sağlamlığının qorunması və istənilən şəraitdə operativ tibbi yardım ala bilməsi də döyüş qabiliyyətini müəyyən edən əsas amillərdir. Bu baxımdan maddi-texniki təminat və hərbi tibb xidməti ordunun ən vacib dayaqlarından biri hesab olunur. Məhz bu istiqamətdə görülən işlərlə yaxından tanış olmaq üçün “N” hərbi hissəsinə yolandıq.

Hərbi hissədə bizi mayor İntiqam Qurbanov qarşıladı. O, hərbi hissənin yaranma tarixi, fəaliyyəti barədə ətraflı məlumat verdi. Daha sonra şəxsi heyətin xidməti üçün yaradılmış şəraitlə yaxından tanış olduq, bölmələrdə görülən işlər barədə əyani məlumat aldıq. Tanışlıq zamanı maddi-texniki təminatın təşkilinə və hərbi qulluqçuların xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərə də toxunuldu. Səfərimizin növbəti istiqaməti isə hərbi hissənin tibb məntəqəsi oldu.

Hərbi hissənin tibb məntəqəsində yaradılmış mövcud şəraiti müşahidə etdik. Burada ilk olaraq həkim-stomatoloq Qodışeva Olqa Vladimirovna ilə görüşdük. Krasnodar Tibb İnstitutunun məzunu olan həkim 1995-ci ildən etibarən Azərbaycan Ordusunda mülki işçi kimi stomatoloq vəzifəsində çalışır. Uzun illərin peşə təcrübəsi sayəsində çoxlu sayda hərbi qulluqçuya tibbi yardım göstərərək onların diş sağlamlığının qorunmasına öz töhfəsini verib. Biz tibb məntəqəsində olarkən əsgərin stomatoloji müayinəsi həyata keçirilirdi. Müayinə başa çatdıqdan sonra həkimlə söhbət etdik və onun peşə fəaliyyəti ilə bağlı fikirlərini öyrəndik. O bildirdi ki, Azərbaycan Ordusunda xidmət göstərmək onun üçün hər zaman böyük qürur mənbəyi olub.

“Azərbaycan Ordusunun sıralarında çalışmaq mənim üçün böyük fəxr və şərəfdir. Ömrümün çox hissəsini orduya həsr etmişəm. Çalışıram ki, hərbi qulluqçuların ağız boşluğunda yaranan problemləri vaxtında aradan qaldırım. Onların sağlamlığı müəyyən mənada bizim üzərimizə düşən məsuliyyətdən asılıdır. Sağlam əsgər güclü ordu deməkdir”, - deyə həkim-stomatoloq Olqa Qodışeva vurğuladı.

Daha sonra tibb məntəqəsinin sarğı otağında olduq. Burada bizi tibb bacısı Aygün Qasımova qarşıladı. O, 1973-cü ildə Bakı şəhərində anadan olub və 2007-ci ildən etibarən Azərbaycan Ordusunda tibb bacısı kimi fəaliyyət göstərir. Sarğı otağında hərbi qulluqçulara göstərilən tibbi xidmətin təşkili, prosedurların icrası və sanitariya-gigiyena qaydalarına əməl olunması ilə yaxından tanış olduq. Burada müalicə alan əsgərin növbəti sarğısı başa çatdıqdan sonra tibb bacısı Aygün Qasımovanın düşüncələrini dinlədik. O bildirdi ki, çalışdığı hərbi hissədə tibbi xidmətin keyfiyyətli təşkili üçün bütün zəruri şərait mövcuddur. “Azərbaycan Ordusunun digər hərbi hissələrində olduğu kimi, burada da maddi-texniki təminat yüksək səviyyədə təşkil olunub. Dərman preparatları və tibbi ləvazimatlarla bağlı heç bir çatışmazlıq yoxdur. Əsgərlərimizin sağlamlığının keşiyində dayanmaq bizim üçün həm şərəf, həm də böyük məsuliyyətdir. Çalışırıq ki, Vətənə layiq və məsuliyyətli şəkildə xidmət edək. Məsuliyyətli olmaq hər bir Azərbaycan vətəndaşının borcudur”, - deyə Aygün Qasımova vurğuladı.



Tibb məntəqəsində keçirdiyimiz müşahidələr zamanı bir daha əmin olduq ki, hərbi qulluqçularımızın sağlamlığı etibarlı əllərdədir. Azərbaycan Ordusunda hərbi tibb xidməti şəxsi heyətin sağlamlığının qorunması və tibbi təminatın fasiləsiz təşkili istiqamətində mühüm rol oynayır. Bu gün Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı və regional hərbi hospitallar müasir tibbi avadanlıqlarla təchiz olunaraq hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərir. Hərbi həkim və feldşer kimi kadrlarının hazırlanması Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində həyata keçirilir. Eyni zamanda, hərbi tibb sahəsində peşəkar mütəxəssislərin hazırlanması məqsədilə bir qrup hərbi qulluqçu qardaş Türkiyə Respublikasının nüfuzlu hərbi tibbi təhsil müəssisələrində də bu peşəyə yiyələnirlər. Vətən müharibəsi və sonrakı dövrdə keçirilən əməliyyatlar zamanı hərbi tibb personalı peşəkarlığı, fədakarlığı və operativ fəaliyyəti ilə üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirib. Maddi-texniki bazanın davamlı şəkildə gücləndirilməsi və tibbi təminat sisteminin təkmilləşdirilməsi sayəsində bu gün hərbi tibb xidməti ordunun döyüş hazırlığının ayrılmaz tərkib hissələrindən biri kimi inkişafını uğurla davam etdirir.

**Kapitan**
**Əli ABIYEV**
**“Azərbaycan Ordusu”**

# Mövsümi viruslardan qorunma yolları

İlin müxtəlif fəsillərində hava şəraitinin dəyişməsi insanların sağlamlığına birbaşa təsir göstərir. Xüsusilə payız və qış aylarında mövsümi virus infeksiyalarının yayılma riski artır. İnsanların qapalı məkanlarda daha çox vaxt keçirməsi, havanın soyuması və immun sisteminin zəifləməsi virusların daha sürətlə yayılmasına şərait yaradır. Bu səbəbdən, mövsümi viruslardan qorunmaq üçün profilaktik tədbirlərə riayət etmək olduqca vacibdir. Sağlam həyat tərzi, gigiyena qaydalarına əməl olunması və vaxtında tibbi yardım almaq xəstəliklərin qarşısının alınmasında mühüm rol oynayır.

Mövsümi viruslar əsasən, tənəffüs yollarını zədələyən infeksiyalardır. Bunlara qrip, paraqrip, rinovirus, adenovirus və digər virus mənşəli xəstəliklər daxildir. Viruslar xəstə şəxsin asqırması, öskürməsi, danışması zamanı havaya yayılan damcılar vasitəsilə digər insanlara keçir. Bundan başqa, çirkli əllər, qapı tutacaqları, telefonlar və gündəlik istifadə olunan əşyalar da yoluxma mənbəyi ola bilər.

Virus infeksiyalarının ilk əlamətləri adətən halsızlıq, hərarətin yüksəlməsi, boğaz ağrısı, burun axması, öskürək, baş ağrısı və əzələ ağrıları ilə özünü göstərir. Bəzi hallarda iştahsızlıq, titrətmə və ümumi zəiflik də müşahidə olunur. Bu əlamətlər hiss edildikdə xəstəliyi yüngül qəbul etmək düzgün deyil. Erkən mərhələdə istirahət etmək, bol maye qəbul etmək və həkim məsləhəti almaq sağalma prosesini sürətləndirə bilər.

Mövsümi viruslardan qorunmağın ən təsirli yollarından biri şəxsi gigiyena qaydalarına riayət etməkdir. Əllər mütəmadi olaraq sabun və su ilə ən azı 20 saniyə yuyulmalıdır. Sabun olmadıqda spirt tərkibli dezinfeksiyaedici vasitələrdən istifadə etmək tövsiyə olunur. Çirkli əllərlə gözə, buruna və ağıza toxunmaqdan çəkinmək lazımdır.

Qapalı və insanların sıx toplaşdığı məkanlarda havalandırma xüsusi əhəmiyyət daşıyır. Otaqların mütəmadi havalandırılması virusların yayılma ehtimalını azaldır. Xəstə şəxslərlə yaxın təmasdan mümkün qədər uzaq durmaq, zərurət olduqda tibbi maskadan istifadə etmək də qoruyucu tədbirlər sırasındadır.

İmmunitetin güclü olması viruslara qarşı orqanizmin müqavimətini artırır. Bunun üçün balanslaşdırılmış qidalanmaq, kifayət qədər meyvə və tərəvəz qəbul etmək, zülal və vitaminlərlə zəngin qidalara üstünlük vermək vacibdir. Xüsusilə C və D vitaminləri, sink və digər faydalı mikroelementlər immun sisteminin normal fəaliyyətinə kömək edir. Lakin vitamin preparatları yalnız həkim məsləhəti ilə qəbul edilməlidir.

Fiziki aktivlik də sağlamlığın qorunmasında mühüm rol oynayır. Gündəlik gəzinti, yüngül idman hərəkətləri və açıq havada vaxt keçirmək qan dövranını yaxşılaşdırır, immun sistemini gücləndirir. Bununla yanaşı, kifayət qədər yuxu və stressin azaldılması da virus infeksiyalarına qarşı müqaviməti artıran amillərdəndir.

Hərbi kollektivlərdə virusların yayılma riski daha yüksək ola bilər. Çünki hərbi qulluqçular birgə xidmət edir və təlimlərdə iştirak edirlər. Bu səbəbdən hərbi hissələrdə gigiyena qaydalarına ciddi əməl olunmalı, yaşayış və xidməti otaqlar mütəmadi təmizlənməli, havalandırılması və xəstəlik əlamətləri olan şəxslərin vaxtında həkim müayinəsinə cəlb edilməsi mütəmadi olaraq təmin edilir. Profilaktik tədbirlərin vaxtında görülməsi şəxsi heyətin sağlamlığının qorunmasına və xidmət fəaliyyətinin fasiləsiz davam etməsinə kömək edir.

Bəzən insanlar virus infeksiyalarında antibiotiklərdən özbaşına istifadə edirlər. Halbuki antibiotiklər viruslara təsir göstərmir və onların əsassız qəbulu gələcəkdə antibiotiklərə qarşı davamlılığın yaranmasına səbəb ola bilər. Buna görə də dərman preparatları yalnız həkim təyinatı ilə qəbul edilməlidir.

Mövsümi viruslardan tam şəkildə sığortalanmaq mümkün olmasa da, sadə profilaktik tədbirlərə riayət etməklə yoluxma riskini əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Sağlam qidalanma, şəxsi gigiyena, kifayət qədər istirahət, fiziki aktivlik və tibbi tövsiyələrə əməl etmək həm fərdi sağlamlığın, həm də cəmiyyətin sağlamlığının qorunmasına xidmət edir. Unutmaq olmaz ki, sağlam insan güclü cəmiyyətin, sağlam hərbi qulluqçu isə güclü ordunun əsas dayaqlarından biridir.

**Hazırladı:**
**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

*Analiz*

# Pilotdan qərargaha bir klik: Türkiyə istehsalı HvBS Azərbaycanın döyüş idarəetməsini necə dəyişdirir

(Əvvəli 1-ci səhifədə)



2007-ci ildə inkişafına başlanan, bu günədək 2 milyondan artıq uçuşda komanda-idarəetmə və tapşırıq planlaması fəaliyyətlərini dəstəkləmiş, daha öncə Pakistana ixrac edilmiş və NATO-nun altımərhələli qiymətləndirmə proqramının ilk dörd mərhələsini uğurla tamamlamış bu sistem dünyanın ən əhatəli komanda-idarəetmə informasiya sistemləri sırasında göstərilir. Azərbaycanın bu sistemin 2-ci beynəlxalq istifadəçisinə çevrilməsi isə sadəcə tədarük faktı deyil, ölkənin hərbi hava qüvvələrinin rəqəmsal infrastrukturunun hansı texnoloji təməl üzərində qurulacağının müəyyənləşməsi deməkdir. Sistemin açıqlanmış texniki xarakteristikaları - arxitektura prinsiplərindən məlumat mübadiləsi protokollarına qədər bu təməlin nə dərəcədə düşünülmüş olduğunu anlamağa imkan verir.

Sistemin konseptual quruluşundan başlayaq. HvBS iki əsas komponentdən - Döyüş İdarəetmə Sistemi və Resursların İdarəetmə Sistemindən ibarətdir və bu ikili quruluş özlüyündə dərin bir fəlsəfəni əks etdirir. Ənənəvi yanaşmada hərbi informasiya sistemləri ya sırf əməliyyat müstəvisinə (planlaşdırma və icraya, ya da sırf inzibati müstəviyə) kadr, logistika və maliyyə idarəçiliyinə fokuslanır və bu iki dünya arasındakı uçurum ordu idarəçiliyinin xroniki problemi olaraq qalır. Halbuki real əməliyyat planlaması bu iki müstəvinin kəsişməsində baş verir: hava tapşırığı planlaşdıran qərargah zabiti eyni anda hansı təyyarənin texniki xidmətdə olduğunu, hansı pilotun uçuş saatı limitinə yaxınlaşdığını, hansı aerodromdakı sursat ehtiyatının hansı səviyyədə olduğunu bilməlidir.

HvBS-in insan resursları, logistika və maliyyə kimi dəstək funksiyalarını döyüş idarəetməsi ilə eyni rəqəmsal çətir altında birləşdirməsi müəssisə resurslarının planlaşdırılması ilə döyüş idarəetməsi konsepsiyalarının sintezi kimi qiymətləndirilə biləcək yanaşma və bu sintez əməliyyat planlaşdırıcısına real resurs mənzərəsi əsasında qərar vermək imkanı yaradır. Sistemin əməliyyat hazırlığı proseslərini saatlardan bir neçə dəqiqəyə endirməsinin texniki sirri də məhz burada gizlənir: avtomatlaşdırma yalnız o zaman real sürət verir ki, planlaşdırma alqoritmi bütün lazımi məlumatlara - hava şəraitindən pilot hazırlığına qədər vahid mühitdə, əl ilə axtarış olmadan çıxış edə bilsin.




Komanda-idarəetmə dövrünün əhatə dairəsi baxımından HvBS-in təqdim etdiyi inteqrasiya xüsusi diqqətə layiqdir. Sistem komandan direktivinin formalaşdırılmasından tapşırıq planlamasına, Hava Tapşırıq Əmrinin və uçuş tapşırıq planlarının hazırlanmasından bu planların bilavasitə hava platformalarına yüklənməsinə qədər uzanan tam dövrü əhatə edir. Bu, ucdan-uca inteqrasiya adlanan yanaşmadır və onun praktiki dəyərini anlamaq üçün ənənəvi prosesin necə işlədiyini xatırlamaq kifayətdir: klassik qaydada komandanın niyyəti şifahi və yazılı əmrlər zənciri ilə aşağı ötürülür, hər pillədə yenidən interpretasiya olunur, planlar ayrı-ayrı proqramlarda tərtib edilir, sonra çap olunur və ya daşınan yaddaş vasitəsilə təyyarəyə köçürülür. Hər keçid nöqtəsi vaxt itkisi, xəta riski və təhlükəsizlik boşluğu deməkdir. HvBS bu zənciri qıraraq komandan qərarı ilə kabinədəki tapşırıq məlumatı arasında fasiləsiz rəqəmsal axın yaradır və bu axının hər həlqəsi eyni məlumat bazasından qidalandığı üçün versiyalar arasında ziddiyyət ehtimalı aradan qalxır.

Sistemin tərkibindəki Komanda-İdarəetmə Portalı isə bu axının vizual ifadəsidir: hava mənzərəsi, dost və düşmən qüvvələrin döyüş düzülüşü və digər kritik əməliyyat məlumatları vahid ekranda birləşdirilərək istifadəçiyə fərqli vəziyyətləri və qərar dəstəyi qabiliyyəti verir. Bu, sadə vizuallaşdırma məsələsi deyil, əməliyyat mərkəzində xidmət edən zabitin 5 fərqli sistemdən gələn məlumatı öz beynində birləşdirməyə məcbur qalması ilə hazır sintez olunmuş mənzərə qarşısında oturması arasındakı fərq, böhran anında düzgün qərarla fəlakətli xəta arasındakı fərqə bərabərdir.

Sistemin beynəlxalq hərbi standartlarla uyğunluğu onun texniki kimliyinin bəlkə də ən strateji elementidir. Açıqlanan xarakteristikalara görə HvBS taktiki məlumat ötürmə xətlərinin geniş spektrini - “Link 1”, “Link 11B”, “Link 16” və JREAP protokollarını dəstəkləyir. Bu siyahının mənasını açmaq lazımdır: “Link 16” NATO-nun hava əməliyyatlarında istifadə etdiyi əsas taktiki məlumat mübadiləsi standartıdır və müasir qırıcılardan uzaq radiolokasiya aşkarlama təyyarələrinə, yerüstü HHM sistemlərindən gəmilərə qədər bütün platformalar arasında real vaxt rejimində hədəf məlumatlarının, mövqe məlumatlarının və əmrlərin mübadiləsini təmin edir. JREAP isə bu mübadiləni taktiki radio üfüqündən kənara - peyk və genişzolaqlı şəbəkələr üzərindən uzaq məsafələrə daşımağa imkan verir.

Bir komanda-idarəetmə sisteminin bu protokolları dəstəkləməsi o deməkdir ki, sistem NATO standartlı istənilən platforma ilə “danışa bilir”. Buna “AdatP3” formatlı hərbi mesajlaşma standartının və CRD uyğunluğunun əlavə olunması mənzərəni tamamlayır. HvBS qapalı milli sistem deyil, Alyans ekosistemi ilə birgə işləmə qabiliyyətinə malik açıq platformadır. NATO-nun altımərhələli qiymətləndirmə proqramının ilk 4 mərhələsinin uğurla keçilməsi bu uyğunluğun kağız üzərində deyil, rəsmi yoxlama mexanizmləri ilə təsdiqlənmiş olduğunu göstərir.

Azərbaycan üçün bunun praktiki nəticəsi aydındır: ölkənin hava qüvvələri NATO standartlı məlumat mühitinə texniki cəhətdən qoşulma qabiliyyəti qazanır ki, bu da həm Türkiyə ilə birgə əməliyyatlarda, həm beynəlxalq təlimlərdə, həm də gələcək tərəfdaşlıq formatlarında həlledici üstünlükdür. Meteoroloji məlumat formatlarının - “NetCDF”, GRIB1 və GRIB2 standartlarının dəstəklənməsi isə ilk baxışdan texniki detal görünsə də, hava əməliyyatlarının planlaşdırılmasında meteorologiyanın oynadığı rol nəzərə alınarsa, beynəlxalq mülki və hərbi meteoroloji mənbələrdən avtomatik məlumat axınının təmin olunması planlaşdırma dəqiqliyinin ayrılmaz şərtidir.

Sistemin daxili arxitekturası da ayrıca təhlilə layiqdir, çünki hərbi informasiya sistemlərində arxitektura seçimi bilavasitə döyüş dayanıqlığı məsələsidir. HvBS paylanmış arxitektura üzərində qurulub və bu, yüksək əlçatanlıq təmin edir. Açıqlanan xarakteristikalar arasında iki ifadə xüsusi əhəmiyyət daşıyır: özünü təmin edə bilən qovşaqlar və qovşaqlararası asinxron məlumat replikasiyası. Bunların hərbi mənası dərindir. Mərkəzləşdirilmiş sistemdə bütün məlumat və emal gücü bir nöqtədə cəmləşir və həmin nöqtənin, istər fiziki zərbə, istər kiberhücum, istərsə də sadəcə rabitə kəsilməsi nəticəsində sıradan çıxması bütün ordunun idarəetməsini iflic edir. Müasir müharibə təcrübəsi, xüsusən Ukrayna müharibəsində komanda məntəqələrinin dəqiq zərbələrin prioritet hədəfinə çevrilməsi, mərkəzləşdirilmiş idarəetmənin nə qədər həssas olduğunu nümayiş etdirdi.

HvBS-in arxitekturası isə əks fəlsəfə üzərində qurulub: hər qovşaq öz lokal məlumat bazası və emal imkanları ilə müstəqil fəaliyyət göstərə bilir, rabitə mövcud olduqda isə qovşaqlar arasında məlumat asinxron rejimdə sinxronlaşdırılır. Bu o deməkdir ki, mərkəzlə əlaqə kəsilən aerodrom və ya əməliyyat mərkəzi kor və kar qalmır, əlindəki son vəziyyət mənzərəsi əsasında fəaliyyətini davam etdirir və əlaqə bərpa olunan kimi məlumat fərqi avtomatik aradan qaldırılır. Sistemin zədələndikdə tamamilə çökmək əvəzinə tədricən və idarə olunan şəkildə funksionallığını itirməsi müharibə şəraitində fəaliyyət üçün nəzərdə tutulmuş sistemlərin əsas meyarıdır və HvBS-in bu meyara cavab verməsi onun sülh dövrü idarəçilik aləti deyil, real döyüş infrastrukturu kimi layihələndirildiyini göstərir.




Proqram təminatı texnologiyaları müstəvisində sistem J2EE əsaslı çoxtəbəqəli arxitektura və “Java Swing” üzərində qurulmuş zəngin müştəri interfeysi istifadə edir, platformadan asılı olmayan işləmə, avtomatik konfiqurasiya və quraşdırma imkanlarına malikdir. Bu seçimlərin hər birinin arxasında praqmatik hesablama dayanır. Çoxtəbəqəli arxitektura təqdimat, məntiq və məlumat təbəqələrini bir-birindən ayıraraq sistemin ayrı-ayrı komponentlərinin müstəqil yenilənməsinə və genişləndirilməsinə imkan verir, bu, açıqlanmış modul genişlənmə qabiliyyətinin texniki təməlidir. Platformadan asılı olmayan “Java” texnologiyasının seçimi isə sistemi konkret əməliyyat sistemi və avadanlıq istehsalçısını bağlılıqdan azad edir ki, bu da hərbi tədarükçüdən asılılığın minimuma endirilməsi baxımından strateji qərardır.

“Java Swing” əsaslı zəngin müştəri yanaşması bəzi müşahidəçilərə köhnəlmiş görünə bilər (mülki dünyada meyil çoxdan veb-əsaslı interfeyslərə keçib), lakin hərbi kontekstdə bu seçimin öz məntiqi var: zəngin müştəri lokal emal gücündən istifadə edərək server əlaqəsi zəiflikdə belə mürəkkəb xəritə əməliyyatları və planlaşdırma funksiyalarını davam etdirə bilir ki, bu da yuxarıda təsvir olunan özünütəminat fəlsəfəsinin interfeys səviyyəsindəki davamıdır. Qabaqcıl xəritə imkanları üzərində qurulmuş vizual planlaşdırma və izləmə funksiyaları isə müasir əməliyyat planlamasının coğrafi-məkan kəşfiyyatı ilə üzvi bağlılığını əks etdirir. Hava əməliyyatı mahiyyətcə məkan üzərində həll olunan tapşırıqdır və marşrutların, təhdid zonalarının, hədəf koordinatlarının interaktiv xəritə mühitində işlənməsi planlaşdırma sürətinin əsas amillərindəndir.

Bütün bu texniki təbəqələri bir araya gətirdikdə HvBS-in beynəlxalq bazardakı yeri də aydınlaşır. Hərbi komanda-idarəetmə proqram təminatı seqmenti dünyada dar bir dairənin (ABŞ-nin nəhəng inteqratorlarının, “Palantir” kimi yeni nəsil məlumat-analitika şirkətlərinin, Avropanın “Thales” və “Leonardo” kimi qruplarının və İsrail istehsalçılarının) hakim olduğu sahədir. Bu seqmentə giriş yalnız texnoloji yetkinliklə deyil, real istismar təcrübəsi ilə mümkündür, çünki heç bir ordu öz sinir sistemini sınaqdan çıxmamış məhsula etibar etməz. HvBS-in 2 milyon uçuşluq istismar tarixçəsi məhz bu baxımdan onun ən güclü arqumentidir: sistem laboratoriya məhsulu deyil, Türkiyə HHQ kimi NATO-nun ən böyük hava qüvvələrindən birinin gündəlik əməliyyat yükü altında illərlə cilalanmış bir platformadır.

Pakistandan sonra Azərbaycanın ikinci ixrac istifadəçisinə çevrilməsi isə həm sistemin ixrac potensialının təsdiqi, həm də Azərbaycan üçün texniki risklərin minimuma endirilməsi deməkdir. Ölkə sınaqdan keçmiş, standartlaşdırılmış və inkişaf yol xəritəsi olan hazır ekosistemə qoşulur. Texniki analizin sonunda bir məqamı qabardaq: Azərbaycan bu tədarüklə sadəcə proqram təminatı deyil, arxitektura fəlsəfəsi, standartlar mühiti və texnoloji inkişaf trayektoriyası əldə edir. Paylanmış, modul, NATO-ya uyğun və platformadan asılı olmayan bu təməl üzərində ölkənin hava qüvvələri gələcək onilliklərin texnologiyalarını, Süni Zəka dəstəkli qərar sistemlərindən pilotsuz-pilotlu birgə əməliyyat konsepsiyalarına qədər, inteqrasiya edə biləcək rəqəmsal özül qazanır və müasir hərbdə məhz bu özül, görünən platformalardan daha çox, sabahın döyüş qabiliyyətini müəyyən edir.

**Firuz BAĞIROV**
**Ordu.az**

# Şəhid övladları üçün yay düşərgəsi təşkil edilib



*Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "Şəhid övladlarının intellektual inkişaf proqramı" layihəsi çərçivəsində növbəti tədbirə yekun vurulub.*

28-29 iyul tarixlərində Naxçıvanda yaşayan şəhid övladları və şəhid xanımları Ağbulaq İstirahət Mərkəzində təşkil olunan iki günlük yay düşərgəsində iştirak etmək üçün Naxçıvan şəhərindən yola salınıblar.

Düşərgə müddətində iştirakçılar üçün komanda quruculuğu və tanışlıq proqramları, intellektual və yaradıcı fəaliyyətlər, idman yarışları, maarifləndirici görüşlər, açıq hava əyləncələri, musiqili istirahət proqramı və digər maraqlı tədbirlər təşkil olunub.

Yay düşərgəsinin ilk günü iştirakçılar üçün həm maarifləndirici, həm də əyləncəli proqramlarla yadda qalıb. Təlimlər, intellektual oyunlar, komanda tapşırıqları və müxtəlif interaktiv fəaliyyətlər şəhid övladlarının vaxtlarını səmərəli keçirməsinə, yeni dostluqlar qurmasına və biliklərini nümayiş etdirməsinə imkan yaradıb.



Düşərgənin ikinci günü çərçivəsində "Şəhid övladları ilə gələcəyə baxış" mövzusunda Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarının rəhbərləri ilə görüş keçirilib. Görüş zamanı şəhid övladları ilə səmimi fikir mübadiləsi aparılıb, onların gələcək hədəfləri, təhsili və şəxsi inkişafı ilə bağlı tövsiyələr səsləndirilib, sualları cavablandırılıb.

Daha sonra düşərgədə iştirak edən bütün şəhid övladlarına layihədə iştiraklarına görə fəxri fərmanlar təqdim olunub.

Layihənin sonunda iştirakçılar Batabat Astrofizika Rəsədxanasına və Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiya ediblər. Ekskursiya zamanı onlara rəsədxananın elmi fəaliyyəti və astronomiya sahəsində aparılan müşahidələr, həmçinin Zəngəzur Milli Parkının zəngin təbiəti, biomüxtəlifliyi və mühafizə olunan canlı aləmi haqqında qısa məlumat verilib.

Yay düşərgəsində iştirak edən şəhid ailələri təşkil olunan proqramlardan məmnun qaldıqlarını bildiriblər.

Şəhid yoldaşı Aygül İbrahimova deyib ki, düşərgədə uşaqların həm maraqlı vaxt keçirməsi, həm də yeni biliklər qazanması üçün hər cür şərait yaradılıb. O, bu cür layihələrin şəhid övladlarının sosiallaşmasına və özlərini daha rahat hiss etmələrinə böyük töhfə verdiyini qeyd edərək təşkilatçılara təşəkkürünü bildirib.



Şəhid övladı Mətanət İsgəndərova isə düşərgədə təşkil olunan təlimlərin, intellektual və komanda oyunlarının onda xoş təəssüratlar yaratdığını söyləyib. O bildirib ki, burada həm yeni dostlar qazanıb, həm də iştirak etdiyi oyun və fəaliyyətlərdən zövq alıb. Mətanətin sözlərinə görə, düşərgədə hər an maraqlı keçir və burada olmaq ona xüsusi sevinc bəxş edir.



Şəhid övladı Gülay İbrahimova düşərgə çərçivəsində keçirilən intellektual oyunda birinci yerə layiq görülüb. O, qazandığı uğurun sevincini bölüşərək belə tədbirlərin öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün gözəl fürsət olduğunu bildirib. Gülay qeyd edib ki, düşərgədə keçirdiyi vaxt onun üçün həm faydalı, həm də yaddaqalan olub.

İki gün davam edən yay düşərgəsi ərzində keçirilən intellektual, maarifləndirici və sosial fəaliyyətlər şəhid övladlarının bilik və bacarıqlarının inkişafına, asudə vaxtlarının səmərəli təşkilinə və onların yaddaqalan anlar yaşamasına töhfə verərək uğurla yekunlaşıb.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

*Sıra hazırlığı*

# Əsgərin uğuru hərbi intizamdan, hərbi intizam isə sıradan başlanır

***Bütün hazırlıqlar önəmlidir. Sıra hazırlığı deyərdim ki, bütün hazırlıqların açarıdır. Əsgər əyninə hərbi mundir geyinən kimi ilk olaraq sırada dayanır. Ona sıranın müqəddəs olduğu aşılanır. Hərbi intizamın, yüksək döyüş hazırlığının başlanğıcı məhz, sıra hazırlığıdır. Ordumuzda sıra hazırlığına daim xüsusi diqqət yetirilir. "N" hərbi hissəsində sıra meydanında əsgərlər silahsız sıra məşqlərini davam etdirirlər. Onlara nizami sıra yerişində ayağın neçə santimetr yerdən qalxmalı olduğunu, pəncə dabanla necə mütənasib olmalı kimi incəlikləri komandir izah edir, daha sonra onlardan hərəkətin icrasını tələb edir.***

Leytenant Nüsrət Kərimov hərbi bilikləri, sıra vərdişlərini kifayət qədər mənimsəmiş ehtiyat "Zabit hazırlığı kursu" bitirən komandirlərdəndir. Nüsrət Sumqayıt Dövlət Universitetinin "Tarix" fakültəsini bitirib. 2023-cü ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Motoatıcı" ixtisası üzrə zabit hazırlıq kursu bitirib. Həmin vaxtdan bu hərbi hissədə xidmət edir. Bir il sonra Quru Qoşunlarda tam təchizatla 10 km məsafəyə kross qaçışı üzrə birinci yerə layiq görülüb.







Leytenant Nüsrət Kərimov hərbi xidmətə gec gəlsə də, hərbinin qaydalarını tez və yüksək səviyyədə mənimsəyə bilib. O, bunun, hərbi xidmətə olan sonsuz sevgisindən irəli gəldiyini deyir.

Zabit sıra meydanında sıra məşqlərini davam etdirən əsgərlərin yanındadır. O, hər bir əsgərin sıra yerişinə, əsgəri salamı verən zaman qol və dirsəyin bükülüb necə dayanmasına, barmaqların bitişik halda düz və baş geyiminə aparılmasına nəzarət edir. Əgər hər hansı bir əsgər verilən komandanı düzgün yerinə yetirməzsə, dərhal iradını bildirir və səhv yerinə yetirdiyi sıra elementinin necə düzgün olmasını izah edir, sonra isə yenidən həmin əsgərdən bu hərəkəti icra etməsini tələb edir.

Sıra hazırlığına cəlb edilən hər bir əsgər müxtəlif vaxtlarda hərbi xidmətə gəlib. Buna baxmayaraq əsgərlər onlara keçirilən təlim-məşqləri yetərincə mənimsəməyə, hər bir hərəkəti incəliyinə kimi doğru, düzgün yerinə yetirməyə çalışırlar. Əsgərlərdən Nail Allahverdiyev bacarıqlı və sıra məşqlərini düzgün yerinə yetirir. O deyir ki, hərbi xidmətə gəldiyi gün hərbi bilikləri mükəmməl mənimsəməyi qarşısına məqsəd qoyub. Əsgərin uğuru sıra hazırlığındadır. Biz idmana, taktiki təlimə, atışa və istənilən tapşırığın icrasına gedəndə mütləq sıra ilə gedirik. Sırada addım atmağı, yerişdə və dayanmış halda sağa-sola, geriyə dönməyi, rəisə yaxınlaşmağı, rəisdən uzaqlaşmağı və başqa vacib hərəkətləri düzgün icra etmək bizi nümunəvi xidmətə sövq edir.

Əsgərlərdən Əli Məmmədov, Samir Aslanov, Ruhin Səmədli, Elçin Abbasov, Loğman Abdullayev, Nail Abdullayev və başqaları sıra məşqlərini dərindən mənimsəyən hərbçilərdir. Onlar sıra hazırlığının, sıra məşqlərinin əhəmiyyətini yaxşı dərk edirlər. Bu səbəbdən də komandirlərin onlara öyrətdikləri bilik və bacarıqları daha dərindən mənimsəməyə çalışırlar. Əsgər Ruhin Səmədli Şəki Regional Dövlət Kollecini bitirib. Kollecdə oxuduğu illərdə həmişə hərbi xidmət barədə yaşıdları ilə söhbət edib. Hərbi xidmətin insan həyatında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini xidmət zamanı öyrənib. Əsgər dedi: "Televiziyada gedən hərbi verilişlərdən, sosial şəbəkələrdə paylaşımlardan hərbçilərin təntənəli yürüşünü çox izləyirdim. Nə vaxtsa mən də əsgər olub onlar kimi sıra addımlarla addımlayacağımı düşünürdüm. Artıq o arzuladığım günləri yaşayıram. Şux qamətli duruş, nizami addımlarla addımlamaq, hərbi salam vermək və s. sıra hərəkətlərini böyük coşqu ilə yerinə yetirirəm".

Sıra meydanında əsgərlər sıra hərəkətlərini ruh yüksəkliyi ilə yerinə yetirməklə döyüş hazırlığında və başqa hazırlıqlarda qazanacaqları uğurları görürlər. Əsgərlər qazanacaqları uğuru intizamda, hərbi intizamı isə sıra hazırlığında görürlər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Asudə vaxt*

# “Şəxsi heyətin ruh yüksəkliyi ordunu yenilməz edir”





Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığında asudə vaxtın təşkili böyük əhəmiyyət kəsb edir. Belə ki, asudə vaxtın səmərəli təşkil olunması əsgərlərimizin hərbi xidmət dövründə dünyagörüşünün formalaşmasına müsbət istiqamətdə güclü təsir göstərir. İdeoloji işin istiqamətlərindən sayılan şəxsi heyətin asudə vaxtının səmərəli təşkili və nəzərdə tutulan prinsiplər əsasında qurulması cavabdeh zabitlərin peşəkarlığından çox asılıdır. Orduda bu istiqamətlər üzrə aparılan işlərin nəticəsi göstərir ki, şəxsi heyət hər zaman asudə vaxtını səmərəli keçirir. Hərbi hissələrimizin ideoloji otaqlarında şəxsi heyətin asudə vaxtının səmərəli keçirməsi üçün yüksək səviyyədə şərait yaradılıb. “N” hərbi hissəsində şəxsi heyətin asudə vaxtının necə və hansı səviyyədə qurulması ilə maraqlanırıq.

Şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsinə rəhbərlik edən baş gizir Rəhman Əliyev bildirdi ki, bu istiqamətdə hər zaman zəruri tədbirlər həyata keçirilir. “Əlamətdar günlərdə konsert proqramları, muzeylərə, tarixi yerlərə ziyarət təşkil olunur, maraqlı viktorinalar keçirilir. Şəxsi heyət asudə vaxtlarında bədii kitablar, jurnal və qəzetlər oxuyur. Onlar ideoloji otaqda, əsgər yeməkxanasında müharibə və hərbi vətənpərvərlik mövzusunda tarixi filmləri, şəhidlərimizin şərəfli döyüş və ömür yoluna həsr olunmuş videoçarxları izləyir.

Çalışırıq ki, şəxsi heyətin asudə vaxtı səmərəli keçsin. Təşkil etdiyimiz konsert proqramlarında musiqi nömrələri əsgərlərin ürəyincə olsun. Onu da qeyd edim ki, bütün tədbirlərimizdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı böyük qələbədən, uğurlu döyüş əməliyyatlarından məlumatları şəxsi heyətin diqqətinə çatdırırıq. Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərimizin unudulmaz xatirələrini yad edirik. Şəxsi heyətin ruh yüksəkliyi ordunu yenilməz edir”.

Hərbi hissədə öyrəndik ki, əsgər Amil Əliyev asudə vaxtlarında dama oyununa önəm verir. Əsgər Bəhruz Hüseynzadə “Azərbaycan Ordusu” qəzetinin bütün rubrikalarında gedən materialları oxuyur. Onun diqqətini çəkən daha çox şəhidlərimizlə bağlı və “Hərb tariximizdən” rubrikasında verilən yazılardır. Əsgərlərdən Seymur Talıbov, Bəxtiyar İslamov da “Azərbaycan Ordusu” qəzetini diqqətlə izlədiklərini, dedektiv janrda kitablar oxumağı, dama, şahmat oynamağı sevdiklərini dedilər.

Sonda qeydlərimi onunla bitirmək istəyirəm ki, “N” hərbi hissəsində şəxsi heyətin asudə vaxtı günün nizam qaydasına uyğun olaraq təşkil olunur.

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# Müharibənin ortaq səsi: “Lili Marleen”







Kazarmanın qarşısında,
Böyük qapının yanında bir fənər var,
Elə əvvəlki kimi, Lili Marlen...

Orduları birləşdirən həmişə eyni məqsəd, qələbə arzusu, döyüş meydanında yaşanan itkilər, səngərdə keçirilən ağır gecələr, doğma yurda qayıtmaq ümidi və ya hərbi peşənin yazılmamış qanunları olmur. Bəzən tarix göstərir ki, kiçik görünən bir detal belə milyonlarla insanın taleyinə toxunur, qarşı-qarşıya dayanan əsgərlərə eyni hissləri yaşadır, hətta ən qanlı müharibələrin içində qısa müddətli olsa da, sükut və atəşkəs yarada bilir. Bu yazıda məhz həmin anların birindən - “Lili Marleen”dən bəhs edirik.

Müharibə silahların dili ilə danışsa da, musiqi insanın daxilindəki səsi oyadır. İkinci Dünya müharibəsinin əfsanəsinə çevrilən “Lili Marleen” mahnısı bunun ən təsirli nümunələrindən hesab olunur. Mahnının tarixi Birinci Dünya müharibəsi illərinə gedib çıxır. 1915-ci ildə alman əsgəri və şairi Hans Leipin xidmətə yollanmazdan əvvəl yazdığı şeirdə iki tanış qadının adını birləşdirərək “Lili Marleen” obrazını yaratmışdı. Şeir uzun müddət geniş auditoriyaya məlum olmasa da, 1938-ci ildə bəstəkar Norbert Schultzenin ona musiqi bəstələməsi və bir il sonra alman müğənnisi Lale Andersenun ifa etməsi ilə yeni həyat qazanıb. Əsər ilk illərdə gözlənilən uğuru əldə etməsə də, 1941-ci ildə vəziyyət dəyişib. Bir gecə Belqraddan yayımlanan Alman radiostansiyası əllərindəki valların böyük əksəriyyəti bombardmanlar nəticəsində sındığı və ya yararsız hala düşdüyü üçün "Lili Marleen"i tapıb səsləndirib. Ertəsi gün "Lili Marleen" mahnısı artıq bütün "Afrika Korpusu"nun dilinə düşüb. Alman stansiyasına mahnının yenidən səsləndirilməsini xahiş edən çoxsaylı məktublar gəlməyə başlayıb. Beləliklə, Almanların nəzarətində olan Belqrad radiosu 18 avqust 1941-ci ildən etibarən hər axşam saat 21:55-də əsgərlərin və onların ailələrinin məktublarının oxunduğu proqramı məhz "Lili Marleen" ilə yekunlaşdırmağa başladı. Radiostansiyanın güclü ötürücü sistemi sayəsində mahnı qısa müddətdə Avropanın və Yaxın Şərqin böyük hissəsində eşidilməyə başladı. Belqrad ötürücüsünün əhatə dairəsi İngiltərədən Pireney yarımadasına, Tunisdən Türkiyə və İrana, Qafqazdan Sovet İttifaqının Asiya hissəsinə qədər uzanırdı. Hərbi müxbir Robert Oberhauzerin yazdığına görə, cəbhədə minlərlə kilometr boyunca eyni mahnını zümzümə edən əsgərləri görmək mümkün idi. Axşamlar radio ətrafına toplaşan hərbçilər ilk notlardan sonra sakitləşir, mahnının qadın səsi ilə səslənməsi isə onların doğma evlərini, ailələrini və sevdiklərini xatırlamasına səbəb olurdu. Mahnı cəbhə ilə ev arasında mənəvi körpüyə çevrilmişdi.

Mahnı sayəsində Lale Anderson da qısa müddətdə "əsgərlərin sevgilisi"nə çevrilmişdi. Onun fotoşəkilləri əldən-ələ gəzir, boğuq səsi isə daşınan qrammofonlardan bütün Saxara səhrasına yayılırdı. Britaniyanın Səkkizinci Ordusu bəzi alman əsgərlərini əsir götürüb mahnının vallarını aşkar edənə qədər "Lili Marleen" ancaq almanların maraq dairəsində idi. "Lili Marleen" əvvəlcə Səkkizinci Ordu daxilində dillərdən-dilə düşərək yayıldı, daha sonra avstraliyalıların diqqətini çəkdi. Amerika qoşunları da "Lili Marleen"i sevmişdi. Qadağanın faydasız olacağını anlayan komandirlər əsgərlərin musiqi zövqünə qarışmamağı daha doğru hesab etdilər. Qısa müddətdə mahnı Şimali Afrika cəbhəsindən Balkanlara qədər xidmət edən minlərlə alman əsgərinin gündəlik həyatının ayrılmaz hissəsinə çevrildi. Maraqlıdır ki, “Lili Marleen” təkcə Almaniya ordusunda deyil, müttəfiq dövlətlərin hərbi qulluqçuları arasında da sevilirdi. Mahnının ingilis dilinə tərcümə olunması və amerikalı-alman müğənni Marlene Dietrich tərəfindən ifa edilməsi onun daha da geniş yayılmasına səbəb oldu. Beləliklə, fərqli bayraqlar altında döyüşən əsgərlər eyni melodidə doğma evin həsrətini, sevdiklərindən ayrı qalmağın ağrısını və müharibənin ağır yükünü hiss edirdilər. Mahnının populyarlığının sirri isə onun mətnində gizlənirdi. Burada qəhrəmanlıq çağırışları, döyüş ruhunu yüksəldən şüarlar yox idi. Əksinə, səngərdə növbə çəkən bir əsgərin kazarma qarşısındakı fənərin işığında sevdiyini xatırlaması, onunla yenidən görüşmək arzusu təsvir edilirdi:

Kazarmanın qarşısında,
Böyük qapının yanında bir fənər var -
Və o, hələ də oradadır.
Biz yenidən orada görüşmək istəyirik;
Fənərin yanında dayanmaq istəyirik,
Elə əvvəlki kimi, Lili Marlen,
Elə əvvəlki kimi, Lili Marlen.
İkimizin kölgəsi sanki bir idi;
Bir baxışla necə sevdiyimiz görünürdü.
Və fənərin yanında dayandığımızı
hamı görməlidir,
Elə əvvəlki kimi, Lili Marlen,
Elə əvvəlki kimi, Lili Marlen.

Bu sadə, bir o qədər də dərin hisslər milliyyətindən, dilindən və formasından asılı olmayaraq cəbhədə olan hər bir insan üçün tanış idi. Müxtəlif mənbələrdə qeyd olunan məlumatlara görə, bəzi cəbhə bölgələrində “Lili Marleen”in səsləndiyi anlarda döyüşlərin intensivliyi müvəqqəti azalır, əsgərlər mahnını dinləmək üçün atəşi kəsirdilər. Bu hadisələr rəsmi hərbi əmrlərlə elan olunan atəşkəs olmasa da, musiqinin insan psixologiyasına təsirini və müharibənin ən sərt anlarında belə ortaq duyğular yarada bildiyini göstərən maraqlı nümunələr kimi tarixə düşüb. Bu gün “Lili Marleen” İkinci Dünya müharibəsinin ən simvolik mahnılarından biri hesab olunur. Əsgərin döyüşçü olmaqla yanaşı, hiss edən, sevən və həsrət çəkən insan olduğunu xatırladan tarixi irs nümunəsidir. Çünki müharibələr orduları qarşı-qarşıya qoysa da, musiqi bəzən onları eyni duyğular ətrafında birləşdirə bilir.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**

*Tikdim ki, izim qala...*

# Bəzz qalası

Bu gün Bəzz qalasının qalıqları keçmişin mühüm izlərini yaşadır...

Qaradağ bölgəsində, indiki Kəleybər qəsəbəsinin cənub-qərbində yerləşən Bəzz qalası təkcə tarixi hadisələrlə deyil, həm də öz möhtəşəm memarlıq xüsusiyyətləri və strateji mövqeyi ilə Yaxın Şərqin ən önəmli dağ qalalarından biri hesab olunur. Tarix boyunca müxtəlif adlarla xatırlanan bu möhtəşəm istehkam xalq arasında daha çox Babək qalası adı ilə tanınsa da, klassik ərəb mənbələrində onun adı əsasən, Bəzz şəhəri kimi qeyd edilmişdir.

Bəzz qalasının yaranma tarixi haqqında yazılı mənbələr dəqiq məlumat vermir. Məhz buna görə tarixçilər qalanın tikintisini konkret bir hökmdarın və ya müəyyən ilin adı ilə əlaqələndirmirlər. Elmi araşdırmalarda üstünlük təşkil edən fikir ondan ibarətdir ki, qala erkən orta əsrlərdə, təxminən VI-VIII əsrlər arasında formalaşmış müdafiə kompleksinin üzərində inkişaf etmiş, IX əsrdə isə özünün ən məşhur dövrünü yaşamışdır. Bu baxımdan Bəzz qalası Babək tərəfindən inşa edilmiş tikili deyil, ondan əvvəl mövcud olan və sonradan daha da möhkəmləndirilərək istifadə edilən güclü istehkam hesab olunur.



Bəzz qalasının yerləşdiyi ərazi onun seçiminin təsadüfi olmadığını göstərir. Qala dəniz səviyyəsindən təxminən 2300-2600 metr yüksəklikdə, sıldırım qayaların zirvəsində salınmışdır. Ətrafı bəzi yerlərdə 400-600 metr dərinliyə çatan uçurumlarla əhatə olunduğundan təbii müdafiə sistemi son dərəcə güclü idi. Qalaya aparan yol dar keçidlərdən ibarət olduğuna görə böyük qoşunların eyni vaxtda hücumu demək olar ki, mümkünsüz hesab edilirdi. Məhz bu təbii-coğrafi üstünlüklər Bəzzi orta əsrlərin ən etibarlı dağ qalalarından birinə çevirmişdir. Akademik Ziya Bünyadov ərəb mənbələrini müqayisə edərək Bəzzin Qaradağ bölgəsində yerləşdiyini əsaslandırmışdır. Onun hesablamalarına görə, orta əsr mənbələrində göstərilən məsafələr indiki Kəleybər ətrafındakı qala ilə uyğunluq təşkil edir. Müasir tarixşünaslıqda da bu mövqe daha geniş qəbul edilir.

Bəzz qalasının memarlığı dağ relyefinə uyğunlaşdırılmış müdafiə memarlığının parlaq nümunəsidir. Tikinti zamanı təbii qayalardan maksimum istifadə edilmiş, qala divarları sıldırım yamacların davamı kimi inşa olunmuşdur. Bu üsul həm tikintinin dayanıqlığını artırır, həm də uzaqdan baxıldıqda qalanın ətraf mühitlə vəhdət təşkil etməsinə imkan verirdi. Divarlar əsasən yerli daş materialından hörülmüş, möhkəm əhəng məhlulu ilə bərkidilmişdir. Tikinti texnikası göstərir ki, memarlar həm təbii şəraitdən, həm də dövrün mühəndislik imkanlarından yüksək səviyyədə yararlanmışlar. Qalanın daxili planı da olduqca maraqlıdır. Burada yaşayış tikililərinin qalıqları, su anbarları, ərzaq saxlanılan otaqlar və müdafiə divarlarının izləri bu günə qədər qalmaqdadır. Xüsusilə su ehtiyatının qorunmasına verilən əhəmiyyət Bəzz qalasının uzunmüddətli mühasirələrə hesablanmış istehkam olduğunu göstərir. Yağış və qar sularının xüsusi hovuzlarda toplanması həmin dövr üçün kifayət qədər inkişaf etmiş mühəndislik həllərindən biri hesab edilir. Orta əsr müəlliflərinin əsərlərində Bəzz adı tez-tez çəkilir. Ərəb coğrafiyaşünası Əbu Dulef (X əsr) "Bəzzi qırmızı bayraqlarla seçilən bir istehkam kimi təsvir etmişdir".

Ərəb coğrafiyaşünasları və salnaməçiləri bu qalanı alçatmaz dağ istehkamı kimi təsvir etmiş, onun təbii müdafiə imkanlarını xüsusi vurğulamışlar. Məhz bu təsvirlər müasir tədqiqatçıların qalanın yerləşməsi və memarlıq xüsusiyyətləri barədə apardıqları araşdırmalar üçün mühüm mənbə rolunu oynayır. Arxeoloji tədqiqatlar qalanın müxtəlif dövrlərdə istifadə olunduğunu da təsdiqləyir. Ərazidə aparılmış qazıntılar zamanı Bizans və Azərbaycan Atabəyləri dövrünə aid sikkələrin aşkar edilməsi Bəzzin IX əsrdən sonrakı dövrlərdə də əhəmiyyətini müəyyən qədər qoruduğunu göstərir. Bu tapıntılar qalanın təkcə hərbi deyil, həm də müəyyən iqtisadi və yaşayış funksiyalarını daşıdığını ehtimal etməyə əsas verir. Bu gün Bəzz qalasının qalıqları keçmişin mühüm izlərini yaşadır. Onun dağ relyefi ilə harmoniyada qurulmuş planı, möhkəm daş konstruksiyaları, mürəkkəb müdafiə sistemi və əsrlərin sınağından çıxmış tikinti texnologiyası orta əsr memarlıq məktəbinin yüksək inkişaf səviyyəsini nümayiş etdirir. Məhz buna görə Bəzz qalası tarixçilərin, arxeoloqların və memarlıq tədqiqatçılarının diqqət mərkəzində qalmaqda davam edir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyənin Yalova vilayətində təlim təyyarəsi qəzaya uğrayıb



Avqustun 12-də Türkiyənin Yalova vilayətinin Çiftlikköy rayonunda F-16 təyyarəsinin təlim versiyası qəzaya uğrayıb.

Türkiyə mediası xəbər verir ki, təyyarə Türkiyə Hərbi Hava Qüvvələrinin 18-ci aviabazasının yaxınlığında yerə düşüb.

İlkin məlumata görə, pilot katapult edib. Qəza bölgəsinə tibbi yardım briqadaları və yanğınsöndürənlər göndərilib. Hadisənin səbəbləri məlum deyil.

### "Rheinmetall" yeni pilotsuz döyüş sistemini sınaqdan keçirib



Almaniyanın "Rheinmetall" müdafiə sənayesi konserni "FV-014" pilotsuz uçuş aparatını sınaqdan keçirib.

Şirkət yeni sistemin "Rheinmetall"ın öz istehsalı olan konteyner tipli raket buraxılış qurğusundan uğurla işə salındığını açıqlayıb. Sınaq Saksoniya-Anhalt əyalətində, Alman Aerokosmik Mərkəzinin pilotsuz uçuş sistemləri üzrə Milli Sınaq Mərkəzində keçirilib. "FV-014" həm stasionar vəziyyətdə, həm də "Rheinmetall HX" yük maşını hərəkətdə olarkən buraxılıb. Sistem müxtəlif simulyasiya edilmiş tapşırıqları və hücum uçuşlarını uğurla yerinə yetirib.

Şirkətin məlumatına görə, "FV-014" geniş mobil istifadə üçün nəzərdə tutulub və 100 kilometrədək məsafədə fəaliyyət göstərə bilir. Sistem kəşfiyyat, hədəfin müəyyənləşdirilməsi və dəqiq zərbə imkanlarını bir platformada birləşdirir. Uçuş müddəti 70 dəqiqəyədək olan aparatın başlanğıc çəkisi təxminən 22 kiloqram, faydalı yükü isə 6 kiloqramdır. Konteyner tipli raket buraxılış qurğusu 18-dək "FV-014" daşıya bilir.

Məlumatda yeni sistemin sınağı şirkətin pilotsuz döyüş vasitələri sahəsində imkanlarının genişləndirilməsi istiqamətində mühüm mərhələ kimi qiymətləndirilib.

### Yaponiya Şimali Koreyanın raket sınağına sərt etiraz edib



Yaponiya Şimali Koreyanın səhər saatlarında həyata keçirdiyi ballistik raket sınağı ilə əlaqədar Pxenyana rəsmi etiraz ünvanlayıb.

Yaponiya mediasının müdafiə naziri Şinjiro Koizumiyə istinadən yaydığı məlumata görə, Tokio Pekindəki səfirliyinin diplomatik kanalları vasitəsilə Şimali Koreyanın hərəkətlərini qətiyyətlə pisləyib. Nazir qeyd edib ki, Pxenyanın mütəmadi raket buraxılışları bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid yaradır.

Müdafiə Nazirliyinin açıqlamasına görə, Şimali Koreyanın Vonsan bölgəsindən atdığı raketin maksimal uçuş hündürlüyü təxminən 90 km, mənzili isə 690 km təşkil edib. Buraxılışdan təxminən 10 dəqiqə sonra suya düşən raket Yaponiyanın xüsusi iqtisadi zonasından kənarda qərarlaşıb və heç bir ziyan qeydə alınmayıb. Bu, cari ildə qeydə alınan yeddinci raket sınağıdır.

Qeyd edək ki, son raket buraxılışı ABŞ və Cənubi Koreyanın Pxenyanın sərt qınağına səbəb olan "Ulchi Azadlıq Qalxanı" birgə hərbi təlimlərinə hazırlaşdığı bir dövrə təsadüf edir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Çimərlik voleybolu üzrə Azərbaycan millisi beynəlxalq turnirin qalibi olub


Çimərlik voleybolçularımız beynəlxalq

Çimərlik voleybolu üzrə kişilərdən ibarət Azərbaycan milli komandası Türkiyənin Tekirdağ bölgəsində təşkil olunan və FIVB reytinq xalları qazandıran açıq çempionatın qalibi olub.

16 komandanın mübarizə apardığı yarışda Azərbaycanı İbrahim Məmmədov və Muhəmməd Aslanlı cütlüyü təmsil edib. Voleybolçularımız bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar.

Qadınların yarışında mübarizə aparan Səbinə Əlizadə və Leyla Əliyeva cütü isə 16 komanda arasında 4-cü yeri tutub.

### Azərbaycanın sumo millisi Yaponiyada hazırlıq keçib



Azərbaycanın sumo millisi iyulun 24-dən avqustun 7-dək Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyasının vitse-prezidenti Ülvi Ağamirovun rəhbərliyi ilə Yaponiyada təlim-məşq toplanışında iştirak edib.

Hazırlıq prosesi Asahi Qaoka Sumo Məktəbində, eləcə də Yaponiyanın ən böyük universiteti olan Nihon Daiqaku Universitetində keçirilib. Toplanışın əsas məqsədi idmançıların qarşıdakı mötəbər yarışlara hazırlıq səviyyəsinin yüksəldilməsi olub.

Azərbaycanın Yaponiyadakı səfiri Fərid Talıbov Azərbaycan yığmasının düşərgəsini ziyarət edib.

Səfir hazırlıq prosesi ilə yaxından tanış olub, idmançılarla görüşərək onlara qarşıdakı yarışlarda uğurlar arzulayıb. Fərid Talıbov oktyabrın 17-18-də Bakıda keçiriləcək sumo üzrə dünya çempionatında yığmanın yüksək nəticələr qazanacağına inamını ifadə edib.

Qeyd edək ki, sumo üzrə dünya çempionatı ilk dəfə Azərbaycanda təşkil olunacaq.

### Azərbaycan voleybol millisi Belarusla yoxlama oyunlarında qələbə qazanıb



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatına hazırlıq çərçivəsində sonuncu yoxlama oyunlarını keçirib.

Komanda Bakıda təlim-məşq toplanışında olan Belarus yığması ilə iki dəfə qarşılaşıb. Milli Gimnastika Arenasında baş tutan hər iki görüş Azərbaycan millisinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, komandamız daha əvvəl Yunanıstan və Latviya seçmələrini üstələyib.

**AZƏRTAC-ın materialları əsasında**

Şahməmmədov Xəqan Rasim oğluna verilmiş MV № 129110 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Yariyev Məhəddin Abdulla oğluna verilmiş MV № 097376 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Əli ABIYEV | Lisenziya № 361 Sifariş № 710 Nüsxə 3653 |